# SEÇİCİLƏRİN QEYDİYYATÇISI KOMİSSİYA ÜZVÜ ÜÇÜN XATİRƏ TƏLİMATI

**Səsvermə elektron vasitələrdən istifadə edərək keçirilən seçki məntəqələri üçün nəzərdə tutulub**

**Gürcüstan parlamentinə 26 oktyabr 2024-cü il tarixli seçkiləri**

Bu resurs İHHŞ Seçki Sistemlərinin İnkişafı, İslahatlar və Tədris Mərkəzi tərəfindən hazırlanıb.

Xatirə təlimatı komissiya üzvü tərəfindən funksiyaya uyğun olaraq seçiciyə kvalifikasiyalı xidmət göstərməsi üçün köməkçi resursdur.

**Səsvermə başlamazdan əvvəl komissiyanın sədri sizə funksiyanı yerinə yetirmək üçün aşağıdakıları verəcək:**

- Seçicilərin verifikasiya aparatını. Komissiya sədri fərdi kodu istifadə edərək aparatda verifikasiya prosesini açır.

Verifikasiya prosesi açıldıqdan və aparatdan ilkin hesabatı əks etdirən qəbz çap edildikdən sonra (beləliklə, heç bir seçicinin aparat ilə verifikasiyasının olmadığı təsdiqlənir) komissiya sədrinin göstərişi ilə qeydiyyatçılardan biri verifikasiya aparatından seçicilərin siyahısını çap edir.
**Sxem N1 - seçicilərin siyahısının aparatdan çapı prosesinin təsvirinə baxın.**

- 50 ədəd seçki bülletenini. Bağlamada seçki bülletenlərinin sayının düzgünlüyünü yoxlayın və komissiyanın sədri ilə birlikdə təhvil-təslim aktını imzalamaqla təsdiq edin;
- seçki bülleteni doldurulması üçün xüsusi marker (seçiciyə seçki bülleteninin doldurulması qaydasının izah edilməsi prosesində seçici tərəfindən seçki bülletenindəki sınaq dairəsini rəngləmək üçün);
- səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə zərfləri;
- işarələnmə mayesi;
- yazı qələmi (verifikasiya aparatından çap edilmiş seçicinin verifikasiya qəbzinə seçici tərəfindən imzasını təsdiq etməsi üçün);
- seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərinin yerləşdirilməsi üçün nəzərdə tutulmuş möhürlənmiş qeyri-şəffaf qutu .
- Qutunun alınmasını imzanız ilə qeydlər kitabında təsdiq edin.

**Səsvermə başlandıqdan sonra verifikasiya aparatını istifadə edərək seçiciyə seçicilərin qeydiyyatı və sonradan seçki bülletenlərinin verilməsi xidmətini təqdim edin.**

I. Seçicilərin qeydiyyatı prosesinə aşağıdakı komponentlər daxildir:
   1. verifikasiya aparatında seçicinin məlumatlarının axtarışı və aparatda yüklənmiş seçicilərin siyahısındakı mövcud olan məlumatların uyğunluğunun təsdiqlənməsi;
   2. seçicinin işarələnməsi;
   3. verifikasiya aparatından seçicinin verifikasiyasını təsdiq edən qəbzin çapı və qəbzdə seçicinin imzası.

II. Seçicilər üçün bülletenlərin verilməsi prosesi aşağıdakı komponentləri əhatə edir:

4. Seçki bülleteninin doldurulması qaydası və seçki bülleteni xüsusi çərçivə zərfinə yerləşdirilməsi qaydasının izahı
5. Seçici tərəfindən seçki bülletenində sınaq dairəsinin rənglənməsi
6. Xüsusi çərçivə zərfinə qoyulmuş seçki bülletenin seçiciyə təhvil verilməsi

**I. Seçicinin qeydiyyatı proseduru:**

- Seçicidən şəxsiyyətini təsdiq edən sənədi təqdim etməsini xahiş edin. Seçici şəxsiyyətini təsdiq edən sənədlərdən birini təqdim etdikdə səsvermədə iştirak edir:
  - ✓ Gürcüstan vətəndaşının elektron şəxsiyyət vəsiqəsini;
  - ✓ Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsini (elektron məlumat daşıyıcısı olmayan);
  - ✓ Gürcüstan vətəndaşının pasportunu.

- Seçicinin təqdim etdiyi şəxsiyyəti təsdiq edən sənədin etibarlılıq müddətini yoxlayın. Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi təqdim edildikdə, sənədin verilmə tarixini də yoxlayın;

**Diqqət!**
Seçici müddəti bitmiş şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının etibarsız hesab edilən qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim etdikdə (27 iyul 2011-ci il tarixinədək verilmiş qeyri-elektron şəxsiyyət vəsiqəsi etibarsızdır) ona səsvermədə iştirak etmək qadağan olunur. Seçiciyə səsvermədə iştirakdan imtinanın səbəbini izah edin və onun şəxsiyyətini təsdiq edən etibarlı sənəd təqdim etdiyi halda səsvermədə iştirakına icazə veriləcəyini bildirin.

- Təqdim edilmiş sənəddə seçicinin üzü ilə fotoşəklinin uyğunluğunu yoxlayın.
- Seçicilərin verifikasiya aparatında seçicilərin məlumatlarını axtarışını həyata keçirin:



✓ Seçici elektron şəxsiyyət vəsiqəsini (ID vəsiqəsi) təqdim etdikdə, seçicinin vəsiqəsini verifikasiya aparatının oxuyucusundan keçirin (MRZ);

✓ Əgər seçici Gürcüstan vətəndaşının etibarlı qeyri-elektron (laminatlaşdırılmış) şəx-

siyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının pasportunu təqdim edərsə, “əl ilə axtarış” düyməsindən istifadə edərək verifikasiya aparatında müvafiq axtarış sahəsində seçicinin şəxsi nömrəsini daxil edin və seçicinin məlumatlarını axtarın (sxem N2 – verifikasiya aparatında seçicinin məlumatlarının əl ilə axtarışının təsvirinə baxın).

- Verifikasiya aparatı şəxsiyyət vəsiqəsindəki qeydiyyat məlumatlarını aparatda yüklənmiş seçicilərin siyahısında mövcud olan məlumatlarla müqayisə edir və uyğunluq olduqda, aparat seçicinin  məlumatlarını ekranda göstərir




*Qeydiyyat məlumatlarının uyğunluğu təsdiq edildikdə, siyahıda qeydə alınmış seçici haqqında məlumatın verifikasiya aparatının ekranında əks olunmasının təsviri*

## Yadda saxlayın!

Əgər verifikasiya aparatı tərəfindən seçici məlumatlarının uyğunluğu yoxlanılarkən, təqdim edilmiş sənəddəki (şəkildən başqa) seçicinin qeydiyyatı məlumatlarının seçicinin verifikasiya aparatına yüklənmiş seçicilərin siyahısındakı məlumatlara uyğundursa, lakin seçicinin üzünü və təqdim edilmiş sənəddəki fotoşəklin bir-biri ilə uyğun gəlmədiyini müəyyən etsəz, məntəqə seçki komissiyasının sədrinə müraciət edin və onun göstərişini gözləyin. Əgər komissiyanın sədri uyğunsuzluğu təsdiq etmədikdə, öz xüsusi rəyinizi qeydlər kitabına daxil etmək hüququna maliksiz və bunu komissiyanın katibi ilə imzalayaraq təsdiq edirsiz. Təqdim edilmiş şəxsiyyəti təsdiq edən sənəddə olan fotoşəki ilə seçicinin üzünün uyğun gəlməməsinə baxmayaraq, seçici səsvermədə iştirak edir.

- Verifikasiya aparatı tərəfindən seçici məlumatlarının uyğunluğu təsdiq olunarsa, seçicinin sağ əlinin baş barmağının və ya şəhadət barmağının dırnağında, göstərilən hərəkət mümkün olmadıqda - sağ əlin digər barmaqlarında, əgər bu da mümkün deyilsə eyni şəkildə sol tərəfdə işarələndirmə edin.



**Yadda saxlayın!**
İşarələnmə prosedurundan keçməkdən imtina edildikdə, seçicinin səsvermədə iştirak etmək hüququ yoxdur və ona seçki məntəqəsini tərk etməyi izah edin.
Yuxarı əzələləri (fiziki vəziyyəti) olmayan seçici işarələnmə prosedurundan keçmir.

- İşarələnmə prosedurunu həyata keçirdikdən sonra verifikasiya aparatından seçicinin verifikasiyasını təsdiq edən qəbzi çap edin və seçiciyə, qəbzin müvafiq sahəsində imza atmağa xahiş edin.

**Yadda saxlayın!**
Yuxarı əzələləri (fiziki vəziyyəti) olmayan seçicinin verifikasiya qəbzində seçicinin imzasının yerində "Fiziki vəziyyəti" qeydi yazın və bunu öz imzanızla təsdiq edin.
Görmə qabiliyyətindən məhrum olan və zəif görən seçicilərə həyata keçiriləcək prosedurları şifahi şəkildə izah edin. Seçicilərin vahid siyahısında imzanın yerini əl ilə göstərin.

- İmzalanmış qəbzi qeydiyyat masasının üzərindəki qeyri-şəffaf möhürlənmiş qutuya yerləşdirin.



*Seçicinin verifikasiyasını təsdiq edən qəbzin çapı*



*Qəbzdə seçici tərəfindən atılan imza*



*Qəbzin qeyri-şəffaf möhürlənmiş qutuya qoyulması*

**Yadda saxlayın!**
Seçicinin verifikasiya qəbzi verifikasiya aparatından çap edilmədikdə və ya texniki xəta ilə çap olunduqda komissiyanın sədrinə müraciət edin. Seçici verifikasiya qəbzinin əvəzinə seçicinin verifikasiyasını təsdiq edən aktı imzalayır, onun forması komissiyanın katibi doldurur. Seçicinin imzaladığı aktı verifikasiyanı təsdiq edən qəbzləri üçün nəzərdə tutulmuş qutuya yerləşdirin.

**Seçicilərin qeydiyyatı prosesində risklərin qarşısının alınması.**

{I} Verifikasiya aparatı səsvermə binasında səs vermək üçün gələn seçicinin daşınan seçki qutularının siyahısına daxil edildiyini müəyyən etdikdə aparatın ekranında müvafiq məlumat göstərilir, eyni zamanda aparat səs siqnalı verir. Seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Seçiciyə izahat edin ki, müraciətə uyğun olaraq seçici üçün daşınan seçki qutusu ilə səsvermə xidməti göstərilir.




*Daşınan seçki qutusunun siyahısına daxil edilmiş seçici haqqında məlumatın verifikasiya aparatının ekranında əks olunmasının təsviri*

{II} Verifikasiya aparatı səsvermə binasında səs vermək üçün gələn seçicinin başqa seçki məntəqəsi üzrə xüsusi siyahıya daxil edildiyini aşkar etdikdə, aparatın ekranında müvafiq məlumat əks etdirilir, eyni zamanda aparat səs siqnalı verir. Seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Seçiciyə izah edin ki, səsvermədə iştirak etmək üçün o, müvafiq seçki məntəqəsinə getməlidir. Verifikasiya aparatının ekranında göstərilən məlumat əsasında seçiciyə məntəqənin nömrəsini və ünvanını təqdim edin.




*Digər məntəqə üçün nəzərdə tutulmuş xüsusi siyahıya daxil edilmiş seçici haqqında məlumatın verifikasiya aparatının ekranında əks olunmasının təsviri*

{III} Verifikasiya aparatı seçki məntəqəsində səs vermək üçün gələn seçicinin artıq bu məntəqədə verifikasiya olunduğu müəyyən etdikdə aparatın ekranında müvafiq məlumat göstərilir, eyni zamanda aparat səs siqnalı verir. Seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Seçiciyə seçki məntəqəsini tərk etməyi izah edin.



*Verifikasiya aparatının ekranında ikiqat verifikasiya cəhdi haqqında məlumatın təsviri*

**Seçiciyə seçki bülletenin verilməsi proseduru.**

Seçicinn verifikasiyası/qeydiyyatı prosedurunu başa vurduqdan sonra seçiciyə seçki bülletenini necə doldurmağı və xüsusi çərçivə zərfindən istifadə etməyi izah edin.



*“Səs vermək üçün seçki bülletenində istədiyniz yalnız bir subyektin qarşısındakı dairəni rəngləyin. Seçki bülleteni qatlamayın və seçimi gizlətmək üçün doldurulmuş bülleteni xüsusi çərçivə zərfinə qoyun”.*

- Seçki bülleteni doldurduqdan və xüsusi çərçivə zərfindən istifadə qaydalarını izah etdikdən sonra seçki bülletenini seçki subyektlərinin siyahısını tam örtülməsi  üçün xüsusi çərçivə zərfinə yerləşdirin.
- Seçiciyə xüsusi çərçivə zərfinə qoyulmuş seçki bülleteninin yuxarı tərəfindəki sınaq dairəsini rəngləməyi tapşırın.



*Xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülleteninin yuxarı tərəfində yerləşən sınaq dairəsi*

**Diqqət!**
Görmə qabiliyyətindən məhrum olan və zəif görən seçiciyə seçki bülletenində olan seçki subyektlərinin sıraları barədə məlumat verin və seçki bülleteninin doldurulma qaydasını izah edin. Seçki bülletenini görmə qabiliyyətindən məhrum olan və zəif görən seçiciyə elə verin ki, seçki bülleteni doldurmaq üçün xüsusi çərçivə/formaya qoyulmuş olsun. Seçki bülleteni doldurulması üçün çərçivə/formada hər dairəvi yarıq bülletenindəki seçki subyektlərinin sıra nömrələrinin qarşısındakı dairəyə uyğun olmalıdır. Görmə qabiliyyətindən məhrum olan və zəif görən seçiciyə eyni seçki bülletenində xüsusi ayrılmış yerdə sınaq dairəsini rənglətdirin.
Zəif görən seçiciyə böyüdücü linza təklif edin və ondan istifadə olunacaq qaydanı izah edin.

- Xüsusi çərçivə zərfinə qoyulmuş seçki bülletenini seçiciyə verin və ona izah edin ki, seçki bülleteni xüsusi çərçivə zərfindən istifadə etməklə xüsusi elektron səs sayma aparatına elə yerləşdirilməlidir ki, bülletenin tərəfində olan sınaq dairəsi aşağıda olsun. Bundan sonra gizli səsvermə kabinəsinə keçməyi göstərin.

**Diqqət!**
Səsvermə prosesi xüsusi elektron səs sayma aparatlardan istifadə edilmədən davam etdirildikdə seçici üçün yalnız bülletenin əsas seçki qutusuna qoyulması qaydası dəyişdirilir. Müvafiq olaraq, seçiciyə bülletenin doldurulması və əsas qutuya qoyulması qaydasını izah edin:



*"Səs vermək üçün bülletendə istədiyiniz yalnız bir subyektin qarşısındakı dairəni rəngləyin. Doldurulmuş bülleteni elə qatlayın ki, kimə səs verdiyiniz görünməsin. Seçki bülletenini qatlanmış şəkildə əsas seçki qutusuna qoyun".*

## Qeydiyyatçının funksiyaları ilə bağlı digər məsələlər

### I. Seçicilərin şəxsi məlumatlarının mühafizəsinin təmin edilməsi

Səsvermə binasında olmaq hüququ olan şəxslərə verifikasiya aparatlarına yüklənmiş seçici siyahısında olan şəxsi məlumatların işlənilməsi (o cümlədən fotovideo çəkilməsi, toplanması, qeydə alınması, saxlanması), istifadə edilməsi, açıqlanması, ötürülməsi və/və ya yayılması qadağandır. Sözügedən qadağa, seçicinin şəxsi məlumatları ilə bağlı hərəkətlərin "Gürcüstanın Seçki Məcəlləsi" Gürcüstanın üzvi qanunu və MSK-nın hüquqi aktları ilə nəzərdə tutulmuş məntəqə seçki komissiyasının səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri olduğu hallar istisna olmaqla, məntəqə seçki komissiyasının üzvlərinə də şamil edilir.

Seçicilərin şəxsi məlumatlarının mühafizəsini təmin etmək üçün müəyyən edilmiş qaydalar pozulduqda cavab almaq üçün komissiyanın sədri ilə əlaqə saxlayın.

### II. Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin qeydiyyatı

Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını (seçicilərin fəallığı) müəyyən etmək üçün məntəqə seçki komissiyası sədrinin göstərişi ilə qeydiyyatçılardan biri saat 10:00, 12:00, 15:00, 17:00-da seçicilərin verifikasiya aparatından seçicilərin fəallığını əks etdirən qəbzi/hesabatı çap edir.

Səsvermədə/seçkidə iştirak edən seçicilərin ümumi sayını göstərən yekun qəbz/hesabat səsvermə prosesi başa çatdıqdan sonra çap olunur.

Sxem N3 - Seçicilərin sayını (fəaliyyəti) əks edən qəbzin/hesabatın çapı prosesinin təsvirinə baxın.

*Sxem N1. Seçicilərin siyahısının aparatdan çap olma prosesinin təsviri*




{I}

*Seçici siyahısının çap etmə menyusuna daxil olmaq üçün qeydiyyatçı "Menyuya qayıt" düyməsini basır.*




{II}

*Menyuda qeydiyyatçı "Seçicilərin siyahısı"düyməsini basır*




{III}

*Qeydiyyatçı "Çap et" düyməsini basır və nəticədə seçicilərin siyahısı çap olunur.*

*Sxem N2. Verifikasiya aparatında seçicinin məlumatlarının əl ilə axtarışının təsviri*



**Diqqət!**

Verifikasiya aparatında seçici məlumatlarının əl ilə axtarışı funksiyasından istifadə edildikdə, qeydiyyatçı aparatın axtarış sahəsinə daxil edilmiş seçicinin şəxsi nömrəsinin seçicinin şəxsiyyətini təsdiq edən sənəddə göstərilən şəxsi nömrəsinə uyğun olmasına əmin olmalı və yalnız bundan sonra “Axtarış” düyməsini istifadə edin.

*Sxem N3. Seçicilərin sayını (fəaliyyəti) əks edən qəbzin/hesabatın çap olma prosesinin təsviri*



{I}

*Seçici fəaliyyətinin çap menyusuna keçmək üçün qeydiyyatçı ekranın yuxarı sağ küncündəki menyuya basır*




{II}

*Menyuda qeydiyyatçı “Seçici fəaliyyəti” düyməsini basır.*




{III}

*Qeydiyyatçı “Fəaliyyət qəbzini çap et” düyməsini basır və nəticədə seçicinin fəaliyyətini göstərən qəbz çap olunur.*

# XATİRƏ TƏLİMATI
## Seçicilərin qeydiyyatıçısı komissiya üzvü üçün

Seçicilərin verifikasiya aparatları olmadan səsvermənin davam etdirilməsi zamanı istifadə olunur

Verifikasiya aparatları olmadan seçicilərin səsvermədə iştirak xidmətinin həyata keçirilməsi üçün məntəqə seçki komissiyasının sədri səsvermə binasında iş şəraitinin müvafiq qaydada uyğunlaşdırılmasını təmin edir:

- Seçicilərin verifikasiya aparatlarını seçki komissiyası üçün nəzərdə tutulmuş seçici siyahıları ilə əvəz edir - sizə əlifba sırası ilə bölünmüş seçicilərin vahid siyahısını (şəkillərlə birlikdə masaüstü siyahısı) və qeydiyyatçının xətkeşini verir. Qeydiyyatçılardan birinə seçicilərin xüsusi siyahısını (əgər varsa) verir.
- Komissiya sədrinin tapşırığı ilə, qeydiyyatçılar qeydiyyat masasında onlara verilən siyahıya uyğun olaraq seçicilərin sıra nömrələrini və soyadlarının əlifba ardıcıllığını asırlar.

**I. Seçicinin qeydiyyatı proseduru:**

- Seçicidən şəxsiyyətini təsdiq edən sənədi təqdim etməsini xahiş edin. Seçici şəxsiyyətini təsdiq edən sənədlərdən birini təqdim etdikdə səsvermədə iştirak edir:
  - ✓ Gürcüstan vətəndaşının elektron şəxsiyyət vəsiqəsini;
  - ✓ Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsini (elektron məlumat daşıyıcısı olmayan);
  - ✓ Gürcüstan vətəndaşının pasportunu.
- Seçicinin təqdim etdiyi şəxsiyyəti təsdiq edən sənədin etibarlılıq müddətini yoxlayın. Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi təqdim edildikdə sənədin verilmə tarixini yoxlayın;

**Diqqət!**

Seçici müddəti bitmiş şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının etibarsız hesab edilən qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim etdikdə (27 iyul 2011-ci il tarixinədək verilmiş qeyri-elektron şəxsiyyət vəsiqəsi etibarsızdır) ona səsvermədə iştirak etmək qadağan olunur. Seçiciyə səsvermədə iştirakdan imtinanın səbəbini izah edin və onun şəxsiyyətini təsdiq edən etibarlı sənəd təqdim etdiyi halda səsvermədə iştirakına icazə veriləcəyini bildirin.

- Seçicinin vahid və ya xüsusi seçici siyahısına daxil edilib-edilmədiyini yoxlayın və seçicinin şəxsi nömrəsini seçici siyahısındakı nömrə ilə müqayisə edin.
- Təqdim edilmiş sənəddə göstərilən seçicinin qeydiyyatı məlumatlarının və seçicilərin siyahısındakı məlumatların uyğunluğunu yoxlayın.

**Yadda saxlayın!**

Aşağıda sadalanan məlumatlardan ən azı 3-ü seçicilərin müvafiq siyahısındakı Gürcüstan vətəndaşının şəxsi nömrəsi, cinsi və fotoşəkli ilə birlikdə tam uyğun gələrsə, seçici səsvermədə iştirak edir:

✓ adı;
✓ soyadı;
✓ doğum tarixi (gün, ay, il);
✓ ünvan (Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi və ya xaricdə qeydiyyat yerinin də daxil olduğu agentliyin məlumat bazasına əsasən).

- Təqdim olunmuş sənəddə və seçicilərin siyahısında olan fotoşəklin və seçicinin üzünün bir biri ilə uyğunluğunu yoxlayın.

**Yadda saxlayın!**

Əgər seçici haqqında məlumatlar yoxlanıldıqdan sonra təqdim edilmiş sənədə daxil edilmiş seçicinin qeydiyyat məlumatlarının (şəkildən başqa) seçici siyahısındakı məlumatlara uyğunluğu təsdiq edilərsə, lakin təqdim edilmiş şəxsiyyəti təsdiq edən sənəddəki seçicinin üzü ilə fotoşəkilin bir-birinə uyğun olmadığını hesab edirsinizsə, uyğunsuzluğu təsdiqləmək üçün komissiya sədrinə bildirin və onun göstərişini gözləyin. Komissiyanın sədri uyğunsuzluğu təsdiq etmədikdə, xüsusi rəyinizi səsvermə gününün qeydlər kitabında qeyd etmək hüququnuz var və bunu komissiyanın katibi ilə birlikdə imzanız ilə təsdiqləyirsiniz. Təqdim edilmiş şəxsiyyəti təsdiq edən sənəddə olan fotoşəkil ilə seçicinin üzünün uyğun gəlmədiyinə baxmayaraq, seçici səsvermədə iştirak edir.

- Seçicinin məlumatlarının uyğunluğu təsdiq olunarsa, seçicinin sağ əlinin baş barmağının və ya şəhadət barmağının dırnağında, əgər göstərilən hərəkət mümkün olmadıqda - sağ əlin digər barmaqlarında, əgər bu da mümkün deyilsə eyni şəkildə sol tərəfdə işarələndirmə edin.



**Yadda saxlayın!**
İşarələnmə prosedurundan keçməkdən imtina edildikdə, seçicinin səsvermədə iştirak etmək hüququ yoxdur. Seçiciyə imtinanın səbəbini izah edin və ondan səsvermə binasını tərk etməsini xahiş edin.
Yuxarı əzələləri ("fiziki vəziyyəti") olmayan seçici işarələnmə yoxlanılması prosedurundan keçmir.

- İşarələnmə prosedurunu həyata keçirdikdən sonra seçicilərin vahid siyahısının müvafiq qrafasını imzalayın və seçiciyə siyahıya imza atmaqla seçki bülleteni aldığını təsdiq etməyi göstərin.

**Yadda saxlayın!**
Yuxarı əzələləri (fiziki vəziyyəti) olmayan seçicinin soyadının yanında seçicinin imzasının yerində "Fiziki vəziyyəti" qeydi yazın və bunu imzanızla təsdiqləyin.

Görmə qabiliyyətindən məhrum olan və zəif görən seçicilərə həyata keçiriləcək prosedurları şifahi şəkildə izah edin. Seçicilərin vahid siyahısında imzanın yerini əl ilə göstərin.

**Seçicilərin qeydiyyatı prosesində risklərin qarşısının alınması.**

{I} Səsvermə prosesində seçicinin seçki siyahısına digər seçicinin soyadının yanındakı qrafada imza atması aşkar edilərsə, belə halda soyadının yanında imzası olan seçici həmin qrafada imza atmalıdır. Bu barədə izahat (seçicilərin vahid siyahısında sıra nömrəsi, adı və soyadı göstərilməklə) yazmalısınız.

{II} Səsvermə binasında səs vermək üçün gələn seçicinin başqa seçki məntəqəsi üzrə xüsusi siyahıya salınması müşahidə olunarsa, belə seçicinin seçki

məntəqəsində səs verməsi qadağan ediləcək. Seçiciyə izah edin ki, səsvermədə iştirak etmək üçün o, müvafiq seçki məntəqəsinə getməlidir.

{III} Səsvermə binasında səs vermək üçün gələn seçicinin daşınan seçki qutularının siyahısına daxil edilməsi müşahidə olunarsa, belə seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Seçiciyə izah edin ki, müraciət əsasında seçiciyə daşınan seçki qutusu ilə səsvermə xidməti nəzərdə tutulubdur.

**II. Seçiciyə seçki bülletenin verilməsi proseduru.**

- Seçicinin verifikasiya/qeydiyyatı prosedurunu başa vurduqdan sonra seçiciyə seçki bülleteninin doldurulması və xüsusi çərçivə zərfindən istifadə qaydasını izah edin:

*"Səs vermək üçün seçki bülletenində istədiyiniz yalnız bir subyektin qarşısındakı dairəni rəngləyin. Seçki bülletenini qatlamayın və seçimi gizlətmək üçün doldurulmuş bülleteni xüsusi çərçivə zərfinə qoyun".*

- Seçki bülleteni doldurduqdan və xüsusi çərçivə zərfindən istifadə qaydalarını izah etdikdən sonar qeydiyyatçı seçki bülletenini seçki subyektlərinin siyahısını tam əhatə etməsi üçün xüsusi çərçivə zərfinə yerləşdirin.
- Seçiciyə xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülleteninin yuxarı tərəfindəki sınaq dairəsini rəngləməyi tapşırın.



*Xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülleteninin yuxarı tərəfində yerləşdirilmiş sınaq dairəsi*

**Diqqət!**

Görmə qabiliyyətindən məhrum olan və zəif görən seçiciyə seçki bülleteenində olan seçki subyektlərinin sıraları barədə məlumat vermək və seçki bülleteninin doldurulma qaydasını izah edin. Seçki bülletenini görmə qabiliyyətindən məhrum olan və zəif görən seçiciyə elə verin ki, seçki bülleteni doldurmaq üçün xüsusi çərçivə/formaya qoyulmuş olsun. Seçki bülleteni doldurulması üçün çərçivə/formada hər dairəvi yarıq bülletenindəki seçki subyektlərinin sıra nömrələrinin qarşısındakı dairəyə uyğun olmalıdır. Görmə qabiliyyətindən məhrum olan və zəif görən seçiciyə eyni seçki bülletenində xüsusi ayrılmış yerdə sınaq dairəsini rəngləŧdirin.

Zəif görən seçiciyə böyüdücü linza təklif edin və ondan istifadə olunacaq qaydanı izah edin.

- Seçiciyə xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülletenini verin və ona izah edir ki, seçki bülleteni xüsusi çərçivə zərfindən istifadə etməklə xüsusi elektron səs sayma aparatına elə yerləşdirməlidir ki, seçki bülleteninin tərəfi, harda ki, sınaq dairəsi yerləşdirilib aşağıda olsun. Bundan sonra seçiciyə gizli səsvermə kabinəsinə keçməyi tapşırın.

**Qeydiyyatçının funksiyaları ilə bağlı digər məsələlər**

**I. Seçicilərin şəxsi məlumatlarının mühafizəsinin təmin edilməsi**

Səsvermə binasında olmaq hüququ olan şəxslərə seçicilərin masaüstu siyahısında olan şəxsi məlumatların işlənilməsi (o cümlədən fotovideo çəkilməsi, toplanması, qeydə alınması, saxlanması), istifadə edilməsi, açıqlanması, ötürülməsi və/və ya yayılması qadağandır. Sözügedən qadağa, seçicinin şəxsi məlumatları ilə bağlı hərəkətlərin Gürcüstanın üzvi qanunu “Gürcüstanın Seçki Məcəlləsi” və MSK-nın hüquqi aktları ilə nəzərdə tutulmuş məntəqə seçki komissiyasının səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri olduğu hallar istisna olmaqla, məntəqə seçki komissiyasının üzvlərinə də şamil edilir.

Seçicilərin şəxsi məlumatlarının mühafizəsini təmin etmək üçün müəyyən edilmiş qaydalar pozulduqda cavab almaq üçün komissiyanın sədrinə müraciət edin.

**II. Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin qeydiyyatı**

Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını (seçicilərin fəallığını) saat 10:00, 12:00, 15:00, 17:00-da müəyyən etmək olur. Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin yekun sayı barədə məlumatlar səsvermə prosesi başa çatdıqdan sonra müəyyən edilir.

Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını (seçicilərin fəallığını) müəyyən etmək üçün məntəqə seçki komissiyası sədrinin tapşırığı ilə, səsvermə prosesinə mane olmadan, habelə funksiya müvəqqəti həvalə edildikdə, seçicilərin siyahılarında olan seçici imzalarının sayını (sizin yazdığınız izahatlarda göstərilən məlumatlar nəzərə alınmaqla) və həmçinin sizin tərəfinizdən verilmiş seçki bülletenlərinin sayı (komissiyanın sədrinə təhvil verilmiş korlanmış seçki bülletenlərin sayı daxil olmaqla) hesablayın. Verilmiş seçki bülletenlərinin sayı alınmış seçki bülletenlərin sayı ilə sizdə qalan seçki bülletenlərin sayının müqayisəsi yolu ilə müəyyən edilə bilər.

Məlumatlar arasında fərqlik aşkar edildikdə, dərhal izahat yazın. İzahda göstərilən məlumatlar səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayının müəyyən edilməsi və səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsi məqsədi ilə nəzərə alınır.